Bəzən hüquq mühafizə orqanlarının işçiləri otellərə gəlib əsassız müdaxilə edirlər, qonaqları incidirlər, guya ki, onlar burada hansısa normaları gözləyirlər. Onun arxasında yenə də təmənna, pul qoparmaq, cibini doldurmaq niyyəti var. Buna da son qoyulmalıdır. Mən bu barədə dəfələrlə demişəm və bir daha deyirəm, turizm potensialına malik olan hər bir ölkə çalışır ki, turistləri cəlb etsin, onlar üçün şərait yaratsın. Biz son vaxtlara qədər oturub gözləyirdik ki, kimsə gəlib qapımızı döysün. Vətəndaş vizanı almaq üçün bizim səfirliklərə gedirdi, orada da onları incidirdilər, onların qarşısına müxtəlif əsassız tələblər qoyurdular. Bu vizaları ləğv etdik. Ləğv edəndən sonra indi 90-dan çox ölkənin vətəndaşları gəlib vizanı aeroportda alırlar. Xarici həmkarlarımdan biri mənə deyir ki, Siz ləğv etmisiniz, amma indi bizim ölkəmizdən gələn vətəndaşdan fotoşəkil tələb olunur. Mən dəhşətə gəldim. Nə fotoşəkil?! Xaricə gedən bir adam özü ilə fotoşəkilmi aparır?! Nədir-nədir fotoşəklin yoxdur, gəl pulunu ver, keç. Bu dərəcədə biabırçılıq olmaz axı! Biz onları cəzalandırdıq, fotoşəkil məsələsi ortadan qalxdı. Ondan sonra yenə də eşidirəm ki, aeroportlarda xaricdən gələn qonaqlardan növbədənkənar keçmək üçün pul tələb olunur. Bu dərəcədə alçaqlıq, necə deyim, söz tapa bilmirəm, belə biabırçılıq olmaz. Çox ciddi tədbirlər görülüb və bir daha demək istəyirəm ki, əgər bu sahədə və hər hansı bir başqa sahədə bu pozuntular olarsa və ümumiyyətlə rüşvətxorluqla bağlı əgər bundan sonra bu özbaşınalıq davam edərsə, çox ciddi tədbirlər görüləcək, heç bir keçmiş xidmət nəzərə alınmadan bütün məsul şəxslər cəzalandırılacaqlar.

Turizmlə bağlı bizim əlavə addımlarımız dəmir yolu ilə bağlıdır. Mən bu layihəni artıq bəyan etmişəm. Biz bu il Qəbələ şəhərinə dəmir yolu çəkməyə başlayırıq. Bu, o bölgəyə turist axınını təmin edəcək. Bu il Qusar rayonuna dəmir yolunun çəkilməsi ilə bağlı tədqiqatlar, sənədləşmə işləri, texniki-iqtisadi əsaslandırma aparılır. Yəqin ki, gələn ildən başlayaraq biz bu dəmir yollarını əsas turizm yerlərinə çəkəcəyik.

Bu il 3 "ASAN xidmət" mərkəzi açılır. Onlardan biri fevral ayında Mingəçevir şəhərində istifadəyə verilib. Digər iki mərkəz isə Şəki və İmişli şəhərlərində açılacaq. Daha 5 mərkəzin tikintisi ilə bağlı göstəriş verilmişdir. Onlar gələn il açılmalıdır. Beləliklə, gələn ilin sonuna qədər bizdə 20 "ASAN xidmət" mərkəzi olacaqdır.

Ailə Biznesinə Asan Dəstək (ABAD) mərkəzləri yaradılır. Bunun da həm sahibkarlığın, həm də biznesin inkişafı üçün böyük əhəmiyyəti var. ABAD mərkəzlərində rəqabətqabiliyyətli məhsullar yaradılır. Mən dövlət şirkətlərinə göstəriş vermişdim və özəl şirkətlərə tövsiyə etmişdim ki, bu sahəyə diqqət göstərsinlər. Bu proses artıq başlamışdır.

Bu il 5-6 min insan özünüməşğulluq proqramı ilə əhatə ediləcək. Bu, işsizliyin aradan qaldırılması və yoxsulluğun azaldılması istiqamətində önəmli addım olacaqdır. Kifayət qədər vəsait var. Sadəcə olaraq bu işlər düzgün təşkil edilməlidir ki, ehtiyacı olan insanlara pul qazanmaq üçün vasitələr verilsin.

Bu il infrastruktur layihələri ilə bağlı bizim planlarımız çox böyükdür. İlin sonuna qədər ölkəmizdə qazlaşdırma 95 faizə çatmalıdır. "Şimal-2" elektrik stansiyasının tikintisi başa çatmalıdır. Bu, bizə təxminən 400 meqavata yaxın əlavə elektrik enerjisi verəcək. Biz indi elektrik enerjisini qonşu ölkələrə ixrac edirik. Bizdə çox gözəl ixrac potensialı yaradılıbdır. Ölkə daxilində bütün tələbat tam təmin edilir. Ancaq baxmalıyıq ki, bundan sonra bizə ümumiyyətlə nə qədər generasiya gücləri lazımdır. Ölkəmizin inkişafını, əhalinin artımını, sənayeləşmə prosesini nəzərə almalıyıq. Yəni, böyük inkişafı nəzərə alaraq baxmalıyıq ki, beş ildən, on ildən sonra bizə daxili istehlak üçün nə qədər elektrik enerjisi lazım olacaq. Bununla paralel olaraq, biz xarici bazarları təhlil etməliyik ki, beş ildən, on ildən sonra xarici bazarlara nə qədər enerji ixrac edəcəyik. Buna görə də addımlarımızı atmalıyıq ki, yeni stansiyalar tikilməlidir, yoxsa biz mövcud olan stansiyalarla kifayətlənməliyik? Biz mütləq alternativ enerji mənbələri yaratmalıyıq - külək, günəş, su elektrik stansiyaları tikməliyik. Yəni, bu sahədə çox ciddi təhlil aparılmalıdır və mənə təqdim edilməlidir.

İçməli su ilə bağlı layihələr uğurla gedir. Demək olar ki, bütün şəhərlərdə bu işlər ya icra edilib, ya da ki, icradadır. Hesab edirəm ki, bu da tarixi nailiyyətdir. Çünki indi Bakı şəhərinin 80 faizdən çoxu 24 saat içməli su ilə təmin edilir. Əlbəttə ki, bu rəqəm 100 faiz olmalıdır. Əminəm ki, biz buna da çatacağıq. Bütün bölgələrdə, bütün şəhərlərdə bu layihələr icra edilir, kəndlərin böyük hissəsində də daim diqqət mərkəzində olmalıdır.

Bu il meliorativ tədbirlər nəzərdə tutulur. Üç yüzdən çox subartezian quyusu qazılmalıdır. Bu il ən azı 100 min hektar suvarılmayan torpaqlara suyun verilməsi təmin edilməlidir.

Bu il 2 min kilometr uzunluğunda yeni yollar salınacaq, həm magistral, həm şəhərlərarası, həm də kənd yolları. Onlardan biri Sumqayıt-Rusiya sərhədi yoludur. Yeni yoldur, mövcud yola paralel olacaq və bölgənin inkişafı üçün şərait yaradacaq. O bölgənin turizm potensialı çox gözəldir. Orada sahilboyu turizm obyektləri yaradıla bilər. Altı yüzdən çox kənd yolu salınacaq. Beləliklə, 2004-cü ildən başlayaraq bu ilin sonuna qədər salınacaq yolların ümumi uzunluğu 15 min kilometrə çatacaq.

Bakı şəhərinin nəqliyyat problemləri kompleks şəkildə həllini tapmalıdır. Burada koordinasiya işləri aparılmalıdır. İndi Bakıda yeni yollar salınır, tunellər tikilir. Bununla şəhər nəqliyyatı daha da rahatlaşacaq. Olimpiya Stadionu ilə üzbəüz yeni tunel tikilir. Bu da tıxacların aradan qaldırılması üçün çox önəmlidir. Böyükşor gölü üzərindən yeni genişzolaqlı yol tikilir. Bu da şəhər nəqliyyatı üçün çox önəmli layihədir. Biz Böyükşor gölünün bir hissəsini təmizlədik. İndi qalan hissənin təmizlənməsi nəzərdə tutulur. Bakıda dairəvi dəmir yolu tikiləcək. Bu məqsədlər üçün bu ilin investisiya proqramında 100 milyon manat vəsait nəzərdə tutulmuşdur. Bu, şəhər üçün çox rahat nəqliyyat vasitəsi, Bakıətrafı qəsəbələrin inkişafı və orada yaşayan insanların rahatlığı üçün çox önəmli layihə olacaq. Metro tikintisi müəyyən fasilədən sonra indi bərpa edildi.

Yəni, biz bütün bu məsələlərə kompleks şəkildə baxmalıyıq. Avtobusların alınması nəzərdə tutulur, dayanacaqlar, işıqforlar, metro, şəhərətrafı dəmir yolu, taksi dayanacaqları. Yəni, Bakı şəhərinin nəqliyyat sahəsində vahid idarəetmə olmalıdır ki, paytaxt nəqliyyatı dünyanın aparıcı şəhərlərinin səviyyəsində olsun. Biz indi metro vaqonları, avtobuslar, taksilər alırıq. Ancaq koordinasiya zəifdir. Ona görə bu məsələyə mütləq çox ciddi diqqət göstərilməlidir.

Nəqliyyat sektoru ilə bağlı qeyd etməliyəm ki, bu il biz Ələt Beynəlxalq Dəniz Ticarət Limanının birinci mərhələsinin açılışını qeyd edəcəyik. İndi Ələt limanı fəaliyyət göstərir. Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi məhz Ələt limanında olmuşdur. Ancaq yaxın gələcəkdə birinci faza tam başa çatacaq. Xəzər dənizinin 15 milyon ton yükaşırma qabiliyyəti olan ən böyük ticarət limanı Azərbaycanda - Ələtdə tikilir.

Giriş sözümdə qeyd etdiyim kimi, biz Azərbaycanı nəqliyyat qovşağına çeviririk. Açıq dənizlərə çıxışı olmayan ölkə Avrasiyanın nəqliyyat mərkəzlərinin birinə çevrilir. Bakı-Tbilisi-Qars artıq reallıqdır. Əminəm ki, hər il bu yolla daşınan yüklərin həcmi kəskin artacaq. Şimal-Cənub nəqliyyat dəhlizini də biz qonşu ölkələrlə birlikdə reallığa çeviririk. Qeyd etməliyəm ki, bütün nəqliyyat layihələrimizin uğurlu həyata keçirilməsinin səbəbi həm bizim iradəmiz, təşəbbüsümüzdür, eyni zamanda, qonşu ölkələrlə sıx münasibətlərimizdir. Çünki tranzit ölkə, əgər hansısa ölkə tranzit ölkə olmaq istəyirsə, o, mütləq qonşularla sıx əlaqədə olmalıdır. Qonşularsız heç bir ölkə tranzit ölkəyə çevrilə bilməz.

Biz indi Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə ciddi məşğuluq. Onun çatışmayan hissəsi, o cümlədən Azərbaycan tərəfinin iştirakı ilə reallaşacaq. Şərq-Qərb nəqliyyat dəhlizi artıq reallıqdır. Biz indi mövcud olan dəmir yolu infrastrukturumuzu modernləşdirməliyik ki, sürət daha da artsın. Çünki Azərbaycan ərazisindən çox böyük yüklər daşınacaq.

Sosial infrastrukturla bağlı bu il bir neçə şəhərdə, - daha dəqiq desəm, - Qazax, Qobustan, Şəmkir, Quba, Naftalan, Goranboy şəhərlərində yeni mərkəzi rayon xəstəxanalarının açılışı nəzərdə tutulur. Füzuli və Qəbələ şəhərlərində xəstəxanaların tikintisi davam etdiriləcək. Onların açılışı gələn il nəzərdə tutulur.

Bu il bölgələrdə 137 modul tipli məktəb tikiləcək. Bu məktəblərin tikintisi demək olar ki, bölgələrdə qəzalı vəziyyətdə olan məktəblərin problemini həll etmiş olacaq. Bakı şəhərində isə yay aylarında ondan çox məktəb əsaslı təmir ediləcək.

Bu il beş milyondan çox insan yenə də tibbi müayinədən keçir. Bu da Azərbaycan reallığıdır. Azərbaycan dövləti bu xidməti vətəndaşlara təmin edir. Əlbəttə ki, bizim bütün bölgələrdə mövcud olan müasir tibb ocaqları belə imkanları yaradır. Bu, yenə də bizim sosial siyasətimizin göstəricisidir. Hazırda Azərbaycanda dörd Olimpiya İdman Mərkəzi tikilir. Onlardan ikisi bu il istifadəyə verilməlidir.

Məcburi köçkünlər üçün bu il yeni evlər istifadəyə veriləcəkdir. Bu il ən azı 4 min ailə - 20 min köçkün yeni evlərlə, mənzillərlə təmin ediləcək. Keçən il 2300 ailə - yəni, 12 min köçkün evlərlə təmin edilib. Beləliklə, ilin sonuna qədər evlərlə, mənzillərlə təmin edilmiş köçkünlərin sayı təxminən 285-290 minə çatacaq.

Qeyd etdiyim kimi, Cənub Qaz Dəhlizi uğurla icra edilir. Mən bəzi rəqəmləri səsləndirmək istəyirəm. "Şahdəniz-2" layihəsinin icrası 99 faizdir. Cənubi Qafqaz Kəməri 96 faiz, TANAP 92 faiz. Yəni, bu layihələrdə Azərbaycan aparıcı rol oynayır. Biz, eyni zamanda, TAP layihəsinin səhmdarıyıq. Orada isə Azərbaycanın icra səviyyəsi 68 faizdir. Yəni, Cənub Qaz Dəhlizi artıq reallıqdır. Bu reallığı biz yaratmışıq və bu, ölkəmizin uzunmüddətli inkişafı üçün xüsusi əhəmiyyətə malik olan layihədir.

Gələn ay biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd edəcəyik. Mən bu ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etmişəm. İlin əvvəlindən biz bu gözəl tarixi qeyd edirik. Bu tarixə nəzər salarkən görürük ki, Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü, indiki qədər qüdrətli dövlət olmamışdır. Bunu biz yaratmışıq. Azərbaycan xalqının iradəsi, Azərbaycan dövlətinin siyasəti bu gün ölkəmizin inkişafı üçün əsas amildir.

Mən şübhə etmirəm ki, Azərbaycan bundan sonrakı dövrdə də uğurla inkişaf edəcək. Bizim bütün planlarımız həyata keçirilir. Verdiyimiz bütün vədlər yerinə yetirilir. Son 15 il ərzində bir dənə də yerinə yetirilməyən vəd olmamışdır. Bu gün Azərbaycanın reallıqları onu göstərir ki, biz düzgün yoldayıq. Bu yolla uğurla gedəcəyik. Sağ olun.

# Daşınmaz əmlakın qeydiyyatında yeni mərhələ: elektron çıxarış, innovativ tətbiqlər və vətəndaş məmnunluğu

Ölkədə həyata keçirilən uğurlu islahatların indikatorundan biri olan daşınmaz əmlakın qeydiyyatı sahəsində son illər innovasiyaların tətbiqi, xidmətlərin geniş şəkildə elektron müstəviyə keçirilməsi, prosedurların sadələşdirilməsi və müddətlərin azaldılması bu sahədə iqtisadi aktivliyi artırmaqla şəffaflıq, əlçatanlıq və vətəndaş məmnunluğunu təmin edir. Bu işlərin davamı olaraq Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən aprelin 9-da "Daşınmaz əmlakın qeydiyyatında yeni mərhələ: elektron çıxarış, innovativ tətbiqlər və vətəndaş məmnunluğu" mövzusunda İşgüzar Dialoq keçirilib. Tədbirdə daşınmaz əmlakın qeydiyyatı sahəsində çalışan özəl sektor, Qeyri Hökümət Təşkilatlarının nümayəndələri, rieltorlar, müstəqil ekspertlər və media nümayəndələri iştirak ediblər.



Məqsəd isə iştirakçıları daşınmaz əmlakın qeydiyyatı sahəsində tətbiq olunan müasir informasiya-kommunikasiya texnologiyaları, innovativ və operativ üsullar haqqında məlumatlandırmaq, mövcud potensialın artırılması yollarını müzakirə etməkdir. Eyni zamanda bu sahədə xidmətlərin əhaliyə rahat şəkildə çatdırılması, şəffaflığın, vətəndaş məmnunluğunun daha da artırılması məqsədilə optimal yanaşmalar əsasında ideya bankının formalaşdırılmasıdır.

Tədbirdə çıxış edən Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin rəisi Hikmət Mustafayev bildirib ki, sosial faktorlar və vətəndaş amilinin gücləndirilməsi prinsipləri nəzərə alınaraq, daşınmaz əmlakın qeydiyyatı sisteminin inkişafı, xidmətlərin maksimum sadələşdirilməsi, prosedurların optimallaşdırılması və vətəndaş məmnunluğunun artırılması məqsədi ilə bu sahədə mütəmadi olaraq yeniliklər edilir. Daşınmaz əmlakın qeydiyyatı sahəsində yeni mərhələ olan elektron çıxarışın tətbiqi, elektron arxivlərin formalaşdırılması, onlayn əmlak kalkulyatorunun istifadəyə verilməsi, çıxarışlarla bağlı məlumatların alınmasının və müraciətlərin edilməsinin elektron müstəviyə keçməsi bu sahədə müasir yanaşmaların başlanğıcı kimi qiymətləndirmək olar. Vətəndaşlar üçün çoxmərtəbəli yaşayış binasından alınan mənzillərə dair çıxarışın mövcudluğu ilə bağlı məlumatın öncədən real rejimdə öyrənmək imkanlarının yaradılması da bu qəbildən olan innovasiyalardandır. Onlayn rejimdə əmlakların təqribi bazar qiymətini əvvəlcədən öyrənilməsi də tətbiq edilən yeniliklərdəndir. İnternetdən istifadə etməklə və yaxud SMS vasitəsilə qeydiyyatla bağlı dövlət rüsumu və xidmət haqqı barədə məlumatın əldə edilməsi və ödənişlərin elektron ödəmə məntəqəsində aparılması imkanları da mövcuddur. Tətbiq edilən yeniliklər sayəsində artıq əmlaklara dair çıxarışların 3 günə verilməsi də mümkündür. Diqqətə çatdırılıb ki, dünyada az sayda tətbiq edilən yeniliklərdən olan Elektron çıxarış sistemi isə təkrar bazarda qeydiyyatı tam olaraq onlayn rejimdə aparmaq imkanlarını yaradıb. Daşınmaz əmlakla bağlı iqtisadi və hüquqi proseslər zamanı tələb olunan arayışları real vaxt rejimində bir neçə saniyə ərzində əldə etmək mümkündür.

Qeyd edilib ki, bu yeniliklərlə yanaşı qeydiyyat sahəsində xidmət keyfiyyətinin daha da yaxşılaşdırılması üçün "əks zəng" xidməti və sosial sorğu layihələrinə start verilib. Bu layihələr vasitəsilə vətəndaşlardan qeydiyyat prosesinin keyfiyyətinə olan münasibətlərinin canlı olaraq öyrənilməsi və təkliflərin alınması mümkündür. Məmnunluq prinsiplərini təmin edən sosial layihələrdən olan Kütləvi çıxarış kampaniyaları, mobil ofislər vasitəsilə isə vətəndaşların ünvanlarında qeydiyyat xidmətləri göstərilir. Ötən il ərzində 20, cari ildə isə 10-a yaxın Kütləvi çıxarış kampaniyası keçirilib.

Bu işlərin nəticəsi olaraq Azərbaycan əmlakın qeydiyyatının sadəliyinə görə nüfuzlu beynəlxalq iqtisadi və maliyyə qurumlarının hesabatlarında ön yerlərdə qərarlaşıb. Tətbiq edilən innovativ xidmətlər ötən il ərzində daşınmaz əmlak üzərində hüquqların qeydiyyatının ümumi sayında 14,5%, ilkin qeydiyyatda 18,5% artıma səbəb olub. Komitə tərəfindən istifadəyə verilən 37 elektron xidmətin 24-ü daşınmaz əmlakın qeydiyyatı sahəsinə aiddir.

Daha sonra daşınmaz əmlakın qeydiyyatı sahəsində tətbiq edilən innovativ yanaşmalardan, elektron xidmətlərdən, o cümlədən elektron çıxarışın üstünlüklərindən danışılan ictimai təqdimat olub. Bildirilib ki, müasir yanaşmaların tətbiq edildiyi elektron çıxarış kağız çıxarışın itirilməsi, yararsız hala düşməsi hallarına son qoyub. Artıq kağız çıxarışın başqa insanlar tərəfindən saxtalaşdırılması və qanunsuz istifadə edilməsi mümkün deyil. Əmlak sahibinin müvafiq idarəyə gəlmədən, Elektron Hökumət Portalında yaradılacaq şəxsi kabinetindən elektron formada çıxarışını ala bilməsi onların məmnunluğuna səbəb olub.

Xarici ölkələrdə olduqda belə çıxarışların əldə edilməsi xidmətə olan marağı daha da artırıb. Bu proses rahatlıqla yanaşı, vətəndaşın vaxtını daha səmərəli planlaşdırmağa imkan verir. Həmçinin çıxarışların elektron müstəviyə keçməsi ayrı-ayrı dövlət qurumları tərəfindən verilən aidiyyəti sorğuların cavablandırılması, əhalinin əmlakları üzərində iqtisadi əməliyyatların aparılması işini daha da yüngülləşdirir və optimallaşdırır.

Təkcə bu ilin 20 fevral - 30 mart tarixləri aralığında, yəni təxminən 40 gün ərzində 1000-ə yaxın elektron çıxarış əldə edilib.

Göstərilən xidmətlərin keyfiyyətini müəyyənləşdirməyə imkan verən "əks zəng" sistemi vasitəsilə vətəndaşların bu xidmətlərdən razı qalıb qalmadığını öyrənmək mümkün olur. İnsanlar daşınmaz əmlakın qeydiyyatı ilə bağlı hər hansı çətinliklə üzləşdiyində komitəyə bu barədə məlumat verə bilirlər. Bu xidmət nəticəsində əldə edilən məlumatlar fəaliyyətin daha düzgün şəkildə qurulmasına, təkmilləşdirilməsinə, o cümlədən şəffaflıq prinsipinin təmin edilməsinə imkan verir.

İctimai vəzifələrin yerinə yetirilməsində vətəndaşların iştirakının genişləndirilməsi ilə bağlı onlara sorğu vərəqələri də paylanılır. Əhali qeydiyyat ərazi ofislərində verilən sorğu vərəqələrində qarşılaşdığı anlaşılmazlıqlarla əlaqədar qeydlərini apara bilirlər. Bununla onlar fikirlərini sərbəst bildirə bilir, qeydiyyat orqanının fəaliyyətini rahat və əlçatan şəkildə qiymətləndirir.

Daha sonra çıxış edən özəl sektor, ictimai təşkilat nümayəndələri bildiriblər ki, daşınmaz əmlakın qeydiyyatı sahəsində tətbiq edilən elektron xidmətlər bu sahədə əlçatanlığı təmin etməklə vətəndaş marağını artırıb. Həyata keçirilən innovativ yanaşmalar, yeni layihələr mövcud imkanları daha da artırmaqla bu sahədəki dinamikliyi, iqtisadi əməliyyatların aktivliyini yüksəldib.

Sonda daşınmaz əmlakın qeydiyyatı ilə bağlı iştirakçıları maraqlandıran çoxsaylı suallar komitə nümayəndələri tərəfindən cavablandırılıb. Qeyd edilib ki, Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən belə tədbirlər gələcəkdə də mütəmadi olaraq keçiriləcək.

# Biznes mühitində olmaq istəyənlər üçün yeni imkan: 8 mayda növbəti hərrac keçiriləcək

**Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 8 may tarixində dövlət əmlakının özəlləşdirilməsi üzrə növbəti hərrac keçiriləcək. Budəfəki hərracda müxtəlif çeşidli 178 dövlət əmlakı öz sahibini axtarır. Bunlardan 22-si səhmdar cəmiyyətləri, 93-ü kiçik dövlət müəssisə və obyekti, 60-ı istifadəsiz qeyri-yaşayış sahəsi, 3-ü isə nəqliyyat vasitəsidir.**

Hərraca çıxarılan kiçik dövlət müəssisəsi və obyektləri məişət, iaşə, qida, toxuculuq, təmir, sənaye, nəqliyyat və digər sahələrinə aiddir. Bu əmlaklar paytaxtla yanaşı Gəncə, Sumqayıt, Cəlilabad, Sabirabad, Şəmkir, Şirvan və digər şəhər və rayonlarda yerləşir. Özəlləşdirilən əmlakların ümumi faydalı sahəsi 14 kv.m ilə 5000 kv.m arasında dəyişir.

Prosesə çıxarılan kiçik dövlət müəssisəsi və obyektinin əksəriyyəti torpaq sahəsi ilə birlikdə özəlləşdiriləcək. Həm torpaq sahəsinin, həm də tikilinin ayrıca qiymətləndirilməsi aparılıb. Torpaq sahəsi ilə birgə hərraca çıxarılan əmlaklar Bakı, Tərtər, Yevlax, İsmayıllı və digər şəhər və rayonlarda yerləşir. Prosesə çıxarılan müəssisələr sırasında Mingəçevirdə yerləşən Quşçuluq yardımçı təsərrüfatı, Şəmkir yun tədarükü məntəqəsi, Qusar Tədarük Satış Bazası kimi iri dövlət əmlakları var.

Sənaye sahəsində fəaliyyətini genişləndirməyə imkan verən kifayət qədər müəssisələr özəlləşməyə çıxarılıb. Samux rayonunda yerləşən "Seyidlər üzüm emalı zavodu" dövlət müəssisəsi belə əmlaklardandır. Adı çəkilən əmlakın ümumi faydalı sahəsi 250 kv.m-ə yaxın, torpaq sahəsi isə 26 mindən çoxdur. Obyektin kifayət qədər geniş ərazidə yerləşməsi də iqtisadi baxımından mühüm əhəmiyyət kəsb edir. Həmin əmlakın fəaliyyətinin genişləndirilməsi yeyinti, konservləşdirilmiş məhsulların hazırlanmasına, daxili tələbatın ödənilməsinə öz töhfəsini verə bilər.

Hərracda fəaliyyətini yenidən qurmaqla daha çox gəlir gətirə biləcək əmlaklar sırasında Bakının Nərimanov rayonunda yerləşən 7 saylı mağazanı misal göstərmək olar. Həmin obyekt investorlar üçün xidmət sahəsində yaxşı qazanc deməkdir. Əmlakın ümumi faydalı sahəsi 400 kv.m-ə yaxındır.

Mayın 8-də keçiriləcək hərracda investorlar üçün maraqlı ola biləcək digər bir məqam klub və mədəniyyət evlərinin özəlləşdirilməyə çıxarılmasıdır. Həmin əmlakların ilkin satış qiyməti o qədər də baha deyil. Məsələn, YArdımlı rayonunda yerləşən Şəhər klubu 2 min 500 manata özəlləşməyə çıxarılıb. Əmlakın ümumi faydalı sahəsi 80 kv.m, torpaq sahəsi isə 100 kv.m-dir. Hərraca qoşulmaq istəyənlər öncədən 250 manat beh ödəməlidirlər.

Xaçmazda rayonunda yerləşən Sərkərli kənd klubu da sərfəli qiymətə özəlləşməyə çıxarılıb. Belə ki, həmin əmlakın ilkin start qiyməti 4 min 500 manatdır. Həmin obyektin ümumi faydalı sahəsi 66 kv.m, torpaq sahəsi isə 1000 kv.m-dən çoxdur.

Özəlləşdirilməyə çıxarılan istifadəsiz qeyri-yaşayış sahəsindən isə 48-i paytaxtda, qalanları isə Sumqayıtda, Lənkəranda, Siyəzəndə yerləşir. Belə əmlakların sahəsi 25 kv.m ilə 1612 kv.m arasında dəyişir. Bu isə vətəndaşlarda seçim imkanını artırır.

Hərraca çıxarılan səhmdar cəmiyyətləri sırasında pambıqçılıq, quşçuluq, kəndkimya, nəqliyyat, inşaat, təmir, ticarət, istehsal, emal və sair sahələrə aid müəssisələr vardır. Belə səhmdar cəmiyyətlərinə sırasında "Mingəçevir Qum Çınqıl", "Ağcabədi Aqrotexservis", "Astara çay-3" və digər bu kimi səhmdar cəmiyyətləri var. Qeyd edilməlidir ki, hərraca çıxarılan səhmdar cəmiyyətləri paytaxtla yanaşı, respublikanın müxtəlif bölgələrində yerləşir.

Hərraca müxtəlif markalı nəqliyyat vasitələri də çıxarılıb. Özəlləşdiriləcək avtomobillər arasında Avropa istehsalı olan maşınlar üstünlük təşkil edir. Nəqliyyat vasitələrinin buraxılış tarixi 2006-cı ildir.

Özəlləşməyə çıxarılan əmlaklar haqqında ətraflı məlumat öyrənmək üçün komitənin rəsmi saytı olan emdk.gov.az və privatization.az saytının müvafiq bölməsinə daxil olmaq kifayətdir.

Qeyd edilməlidir ki, dövlət əmlakının özəlləşdirilməsi sahəsində elektron hərracın tətbiqi investorların işini xeyli sadələşdirib. Sistem sərmayəçilərə hərraclara istənilən yerdən internet vasitəsilə onlayn şəkildə qatılmaq imkanları yaradır.

Hərrac barədə ictimai məlumatlandırma Özəlləşdirmə portalı ilə bərabər, həm komitənin rəsmi saytı, həm də komitənin facebook sosial şəbəkəsindəki rəsmi səhifəsi və privatization.az səhifəsi vasitəsilə aparılır.

Prosesə çıxarılan əmlaklara istənilən şəxs, investorlar sifariş verə bilər. Ziyarətçilər isə özəlləşdirmə portalında sifariş verdiyi əmlakla bağlı bütün məlumatlarla tanış ola bilərlər. Əmlakın adı, ünvanı, sahəsi, ilkin start qiyməti və digər informasiyalar portalda yerləşdirilib.

Əmlak Məsələləri Dövlət Komitəsi yerli və xarici investorları, sahibkarları, iş adamlarını və mülkiyyət sahibi olmaq istəyən hər bir kəsi özəlləşmədə fəal iştirak etməyə dəvət edir.

# Hərraclara onlayn qoşulmaq imkanı investorların bu sahəyə marağını artırır

Hərraclar biznes mühitində olmaq istəyənlərə geniş imkanlar yaradır. Belə ki, özəlləşməyə müxtəlif çeşiddə və münasib qiymətə dövlət əmlakları çıxarılır. Bu isə hər bir sərmayəçinin biznes layihələrinə uyğun olaraq əmlak sahibi olmasına şərait yaradır. Belə üstünlüklərlə yanaşı artıq özəlləşmə prosesinin keçirildiyi məkana gəlməklə bağlı investorların zamanını planlaşdırmağa da ehtiyac qalmır. Belə ki, funkisonallığı ilə seçilən Elektron hərracın tətbiqi bu məsələni tam olaraq həll edib. Sistem məkan və zaman məfhumunu aradan qaldırıb. İstənilən şəxs ölkə daxilində və ya xaricində istənilən vaxt müraciət edərək tamamilə elektron şəkildə hərraca qatılmaq hüququ əldə edir.

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 10 apreldə keçirilən növbəti hərracda da investorlar belə üstünlüklərdən yararlanıblar. Hərraclara çıxarılan əmlakların əlverişli olması, iştirak prosedurlarının sadə olması sərmayəçilərin marağını artırıb. Özəlləşmə prosesinin sadalanan müsbət cəhətlər alıcıların sayını artırmaqla budəfəki hərracda da rəqabət yaradıb. Belə ki, Hyundai Sonata markalı avtomobilə edilən təkliflər ard-arda səslənib. İlkin start qiyməti 8 min 500 manat olan bu maşına ən son 18 min 200 manat təklif edilib. 2007-ci ilin istehsalı olan digər Hyundai Sonatanın hərracında da alıcıların aktivliyi müşahidə edilib. Həmin avtomobilin ilkin start qiyməti 7 min 500 manat olsa da edilən təklif 12 min manata qədər yüksəlib. Eyni tendensiya VAZ-21041 markalı avtomobilin hərracında da müşahidə edilib. Belə ki, ilkin start qiyməti 1600 manat olan maşın 2 min 400 manata sahibini tapıb. QAZ-3110 markalı nəqliyyat vasitəsinin hərracında isə ən son 2 min 600 manat təklif edən iştirakçı qalib olub. Qeyd edilməlidir ki, adıçəkilən avtomobilin ilkin start qiyməti 1300 manat olub. Ümumilikdə özəlləşən nəqliyyat vasitələri sırasında Avropa istehsalı olan avtomobillər üstünlük təşkil edib. Həmin maşınların buraxılış tarixi 1987-2008-ci illəri əhatə edir.

Budəfəki hərracda 1 kiçik dövlət müəssisəsi, 6 qeyri-yaşayış sahəsi, 8 nəqliyyat vasitəsi özəlləşdirilib. Bakı şəhəri üzrə keçirilən hərraclarda 2 istifadəsiz qeyri-yaşayış sahəsi və 8 nəqliyyat vasitəsi, respublikanın digər şəhər və rayonları üzrə 1 kiçik dövlət müəssisəsi və 4 istifadəsiz qeyri-yaşayış sahəsi özəlləşdirilib.

Hərracda özəlləşdirilən kiçik dövlət müəssisəsi Astara rayonunda yerləşən Qeyri-yaşayış binasıdır. Həmin əmlak xidmət sahəsində əlverişli olmaqla sahibinə yaxşı gəlir gətirə bilər. Belə ki, ümumi faydalı sahəsi 326 kv.m, torpaq sahəsi 700 kv.m olan obyekt geyim mallarının pərakəndə satışı üçün əlverişlidir.

Bakı şəhəri üzrə özəlləşən qeyri-yaşayış sahəsi Xətai və Pirallahı rayonlarında yerləşir. Region üzrə özəlləşən qeyri-yaşayış sahəsi isə Abşeron və Yevlax rayonlarındadır. Xətai rayonunda yerləşən, ümumi faydalı sahəsi 32,5 kv.m olan əmlakdan ofis, xidmət obyekti kimi istifadə etmək olar. Pirallahıda yerləşən ümumi faydalı sahəsi 361 kv.m olan obyekt də xidmət sahəsinə aid olmaqla investorlar üçün yaxşı gəlir mənbəyidir.

Keçirilən hərracların nəticələri ilə tanış olmaq üçün komitənin rəsmi saytı olan emdk.gov.az və privatization.az portalının müvafiq bölməsinə daxil olmaq kifayətdir.

Hərraca qatılmaq üçün Özəlləşdirmə portalı üzərindən əmlakı seçib sifariş vermək kifayət edir. Portalda hər bir əmlakın mövqeyi, yerləşməsi, mövcud vəziyyəti barədə fotoşəkillər və mətn məlumatları var. İstənilən şəxs hərracda həm iştirakçı qismində qatıla, həmdə ziyarətçi olaraq canlı izləyə bilər.

Qeyd edilməlidir ki, Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən növbəti hərrac aprelin 17-də keçiriləcək. Hərraca investorları cəlb edə biləcək çoxçeşidli əmlaklar çıxarılıb.

# AZƏRBAYCAN RESPUBLİKASININ ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ AÇIQ TENDERƏ DƏVƏT EDİR

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi Azərbaycan Respublikasının Bakı, Gəncə və Sumqayıt şəhərləri üzrə 595nəqliyyat infrastrukturu obyektinin adını və daşınmaz əmlak obyektlərinin nömrələrini əks etdirən ünvan lövhələrinin istehsalıişlərinin satın alınması üzrə açıq tender elan edir.

Tenderdə ünvan lövhələrinin istehsalı işləri ilə məşğul olan, nəqliyyat infrastrukturu obyektlərinin adlarını və daşınmaz əmlak obyektlərinin nömrələrini əks etdirən ünvan lövhələrinin istehsalıüçün zəruri texnikaya və avadanlıqlara,müvafiq iş təcrübəsinə, maliyyə və kadr-mütəxəssis imkanlarına malikhüquqi şəxslər iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra tenderin Azərbaycan dilində tərtib olunmuş Əsas Şərtlər Toplusunu Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (Əmlak Məsələləri Dövlət Komitəsi, otaq №806, tel.: (+99412) 4902408 (dax. 242), faks: (+99412)4903359, e-mail:ekhanalibayli@emdk.gov.az) ünvanından ala bilərlər.

**İştirak haqqı: 1000(bir min) manat**

**Emitent**

Dövlət Xəzinədarlıq Agentliyi
Kodu: 210005
Müxbir hesabı:
AZ41NABZ01360100000000003944
VÖEN: 1401555071
S.W.İ.F.T.BIK.CTREAZ22

**Alan**

Əmlak Məsələləri Dövlət Komitəsi
H/h: AZ84CTRE00000000000002647970
VÖEN: 2000015631
Büdcə səviyyəsinin kodu:7
Büdcə təsnifatının kodu:142340

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3. Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;
4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);
5. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
6. İddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvanı və bank rekvizitləri;
7. Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);
8. İddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən müvafiq sənədlər;
9. Tenderin Əsas Şərtlər Toplusunda göstərilən bütün digər sənədlər;
10. Tender təklifi (texniki və maliyyə təklifləri). Tenderin maliyyə təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır;
11. Tender təklifi dəyərinin 2 (iki) %-i həcmində bank təminatı. Zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır.

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tender təkliflərini qapalı, möhürlənmiş, imzalanmış ikiqat zərflərdə2 (iki) nüsxədə ("Əsli" və "Surəti") təqdim etməlidirlər. İddiaçıların təkliflərinin "Əsli" və "Surəti" arasında fərqlər olarsa, üstünlük "Əsli" sözü yazılmış nüsxəyə veriləcəkdir.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil etdikləri dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini əlavə etməlidirlər.Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

Tender predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən12(on iki) ay müddətinə icra olunmalıdır.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

- iddiaçı tərəfindən müvafiq işin yerinə yetirilməsinə dair təklif olunan üsullar və yanaşma;
- iddiaçının bu sahədə iş təcrübəsi və ixtisas tələblərinə uyğunluğu;
- təklif olunan işçi heyətinin peşəkarlığı, təcrübəsi və səriştəsi;
- görüləcək işlərin dəyəri.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri(maliyyətəklifi və tender təklifinin bank təminatı istisna olmaqla)15 may 2018-ci il tarixinə qədər (saat 17:00-dək), tender təklifini və tender təklifinin bank təminatını isə 23 may 2018-ci il tarixinə qədər (saat 17:00-dək) Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (otaq № 812) ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 24 may 2018-ci il tarixində (saat 15:00-da) Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (otaq № 310)ünvanında açılacaqdır.

Zərflər iddiaçıların səlahiyyətli nümayəndələrinin iştirakı ilə onların təqdimolunma ardıcıllığıüzrə açılacaq və təkliflər elan ediləcəkdir.

Tender Komissiyası

## 10 aprel il tarixdə respublikanın şəhər və rayonları üzrə keçirilmiş hərracda satılmış obyektin siyahısı

| № | Müəssisə və obyektin adı | Ünvanı | Tabe olduğu təşkilatın adı | Ümumi sahəsi (kv.m) | Özəlləşdirilən torpaq sahəsi (kv.m) | İşçilərinin sayı (nəfər) | Start (satış) qiyməti (manat) | Satış qiyməti (manat) | Sərəncamın №-si və tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Qeyri-yaşayış binası | Astara rayonu, Artupa kəndi | İstehsal və Xidmət Müəssisələrinin İdarəetmə Mərkəzi | 326,0 | 700,0 | x | 10000 | 10000 | №151 07.07.2017 |

## Bakı şəhəri üzrə 27 mart 2018-ci il tarixdə keçirilmiş hərracda satılmış avtonəqliyyat vasitələrinin siyahısı

| № | Avtonəqliyyat vasitələrinin markası | Dövlət nömrə nişanı | Buraxılış ili | İlkin satış (start) qiyməti (manat) | Satış qiyməti (manat) | Protokol №-si və tarixi |
|---|---|---|---|---|---|---|
| 1 | VAZ-21043 | 54 AA 097 | 2006 | 1500 | 1500 | 05/18 22.02.2018 |
| 2 | QAZ-31105 | 10 PN 958 | 2008 | 1800 | 1800 | 05/18 22.02.2018 |
| 3 | BMW 320 | 90 PG 128 | 2007 | 5200 | 5200 | 05/18 22.02.2018 |
| 4 | BMW 320 | 90 PG 340 | 2007 | 5200 | 5200 | 05/18 22.02.2018 |
| 5 | BMW 320 | 90 PG 559 | 2007 | 5200 | 5200 | 05/18 22.02.2018 |
| 6 | VAZ-21041 | 16 AA 041 | 2008 | 1200 | 1200 | 05/18 22.02.2018 |
| 7 | Fiat Doblo | 90 AF 183 | 2007 | 3500 | 3500 | 05/18 22.02.2018 |
| 8 | BMW 520 | 90 PN 629 | 2005 | 6000 | 6000 | 05/18 22.02.2018 |
| 9 | Fiat Doblo | 90 AF 458 | 2007 | 3500 | 3500 | 05/18 22.02.2018 |
| 10 | KATO NK 750ÜS L (10 JK 056) | 10 JK 056 | 1980 | 18000 | 18000 | 05/18 22.02.2018 |
| 11 | Hyundai Sonata | 10 PL 273 | 2004 | 5000 | 5000 | 05/18 22.02.2018 |

## 15 may 2018-ci il tarixdə hərraca çıxarılan nəqliyyat vasitələrinin siyahısı

| S/N | Balanssaxlayıcı müəssisənin adı | Avtonəqliyyat vasitəsinin markası | Buraxılış ili | Start qiyməti (manatla) | 10% beh (manatla) |
|---|---|---|---|---|---|
| 1. | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Maddi-Texniki Təminat Baş İdarəsinə bilavasitə tabe olan Avtomobil Təsərrüfatı | BMW-320 | 2007 | 5200 | 520 |
| 2. | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Maddi-Texniki Təminat Baş İdarəsinə bilavasitə tabe olan Avtomobil Təsərrüfatı | FIAT Combi Active | 2007 | 3500 | 350 |
| 3. | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Maddi-Texniki Təminat Baş İdarəsinə bilavasitə tabe olan Avtomobil Təsərrüfatı | FIAT Doblo | 2007 | 3500 | 350 |
| 4. | Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Maddi-Texniki Təminat Baş İdarəsinə bilavasitə tabe olan Avtomobil Təsərrüfatı | FIAT Doblo | 2007 | 3500 | 350 |
| 5. | Bakı Şəhər İcra Hakimiyyəti İqtisadiyyat Komitəsi | QAZ-31029 | 1994 | 800 | 80 |
| 6. | Azərbaycan Respublikasının Mərkəzi Bankı | Hyundai Sonata | 2004 | 4700 | 470 |
| 7. | Azərbaycan Respublikasının Mərkəzi Bankı | Mercedes Benz Sprinter 314 | 2006 | 15000 | 1500 |
| 8. | Azərbaycan Respublikasının Nazirlər Kabineti Aparatının İşlər İdarəsi | BMW 730 | 2006 | 22500 | 2250 |
| 9. | Azərbaycan Respublikasının Nazirlər Kabineti Aparatının İşlər İdarəsi | Chevrolet Epica | 2007 | 7400 | 740 |
| 10. | Azərbaycan Respublikasının Nazirlər Kabineti Aparatının İşlər İdarəsi | Chevrolet Epica | 2007 | 7600 | 760 |

Qeyd : 6-7-ci sətirdə Azərbaycan Respublikası Mərkəzi Bankının balansında olan nəqliyyat vasitələri 2-ci dəfə təkrar hərraca çıxarılır.

8-10-cu sətirdə Azərbaycan Respublikasının Nazirlər Kabineti Aparatının İşlər İdarəsinin balansında olan nəqliyyat vasitələri 2-ci dəfə təkrar hərraca çıxarılır.

Qeyd: Sifarişlər Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Hərracların Təşkili üzrə Auksion Mərkəzində (Bakı şəhəri, Zeynal Xəlil küçəsi 11) və yaxud e–emdk.gov .az elektron portalı vasitəsilə hərracın keçirilməsinə ən gec 3 (üç) bank günü qalanadək qəbul olunacaqdır: Nəqliyyat vasitələri barədə ətraflı məlumatı privatization.az portalından almaq olar. Hərracda iştirak etmək üçün (elektron sifariş verənlər istisna olaraq) hərracın keçirilməsinə ən azı 3 bank günü qalanadək aşağıdakı sənədlər təqdim olunmalıdır:

1. Sifarişçinin şəxsiyyətini təsdiq edən sənəd (Hüquqi şəxslər üçün:notarial qaydada təsdiq olunmuş qeydiyyat şəhadətnaməsi,nizamnaməsi və VÖİN)

2. Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən müəyyən edilmiş hesaba behin köçürülməsini təsdiq edən sənəd. (10% məbləğində beh Mərkəzi Bankda – AZ65NABZ01361150000000004944 nömrəli hesablaşma hesabına ödənilməlidir)

(tel:566-07-44)

## 10 aprel 2018-ci il tarixində keçirilmiş hərracda satılmış dövlət nəfinə müsadirə edilmiş əmlakların siyahısı

| Sıra sayı | Əmlakın adı | Əmlakın yerləşdiyi ünvan | Ölçü vahidi | Miqdarı | Əmlakın start qiyməti manatla | Əmlakın satış qiyməti manatla |
|---|---|---|---|---|---|---|
| **Nəsimi rayonu** | | | | | | |
| 1 | Oyun aparatları | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin anbarı | ədəd | 38 | 209 | 209 |
| **Cəlilabad rayonu** | | | | | | |
| 1 | "Peugeot" markalı 73-B575-10 dövlət qeydiyyat nişanlı avtomobil | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin 4 saylı zona bölməsi | ədəd | 1 | 400 | 400 |

## Bakı şəhəri üzrə 03 aprel 2018-ci il tarixdə keçirilmiş hərracda satılmış avtonəqliyyat vasitələrinin siyahısı

| № | Avtonəqliyyat vasitələrinin markası | Dövlət nömrə nişanı | Buraxılış ili | İlkin satış (start) qiyməti (manat) | Satış qiyməti (manat) | Protokol №-si və tarixi |
|---|---|---|---|---|---|---|
| 1 | Tofaş Şahin Doğan 1.6 | 10 JM 561 | 2002 | 1500 | 2300 | 06/18 01.03.2018 |

## Bakı şəhəri üzrə 10 aprel 2018-ci il tarixdə keçirilmiş hərracda satılmış avtonəqliyyat vasitələrinin siyahısı

| № | Avtonəqliyyat vasitələrinin markası | Dövlət nömrə nişanı | Buraxılış ili | İlkin satış (start) qiyməti (manat) | Satış qiyməti (manat) | Protokol №-si və tarixi |
|---|---|---|---|---|---|---|
| 1 | Hyundai Sonata | 10 AA 756 | 2007 | 7500 | 12000 | 07/18 09.03.2018 |
| 2 | Hyundai Sonata | 90 AK 211 | 2008 | 8500 | 18200 | 07/18 09.03.2018 |
| 3 | Ford Fokus | 90 AC 032 | 2007 | 4000 | 4000 | 07/18 09.03.2018 |
| 4 | Ford Mondeo | 90 AL 609 | 2006 | 4500 | 4500 | 07/18 09.03.2018 |
| 5 | VAZ-21041 | 17 AA 043 | 2008 | 1600 | 2400 | 07/18 09.03.2018 |
| 6 | QAZ-3110-101 | 10 AH 815 | 2003 | 1300 | 2600 | 07/18 09.03.2018 |
| 7 | Mercedes Benz Daimler | 90 AU 220 | 1987 | 1500 | 1500 | 07/18 09.03.2018 |
| 8 | Chevrolet Epica | 10 AA 259 | 2008 | 8100 | 8100 | 07/18 09.03.2018 |

## 15 may 2018-ci il tarixində saat 15.00-da təkrar hərraca çıxarılacaq dövlət nəfinə müsadirə edilmiş əmlakların siyahısı

| Sıra sayı | Əmlakın adı | Əmlakın yerləşdiyi ünvan | Ölçü vahidi | Miqdarı | Əmlakın start (satış) qiyməti manatla | 10% beh | Hərracların sayı |
|---|---|---|---|---|---|---|---|
| **Səbail rayonu** | | | | | | | |
| 1 | "Stoliçnaya" markalı araq 0.75L | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin təyin etdiyi anbarı | ədəd | 1500 | 9750 | 975 | 5 |
| 2 | "Dudka" markalı araq 0.5L | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin təyin etdiyi anbarı | ədəd | 2106 | 9477 | 947,7 | 5 |
| 3 | "Dudka" markalı araq 0.7L | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin təyin etdiyi anbarı | ədəd | 2140 | 13375 | 1337,5 | 5 |
| 4 | "Medvejiy Uqol" markalı araq 0.5L | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin təyin etdiyi anbarı | ədəd | 1772 | 8860 | 886 | 5 |
| 5 | "Medvejiy Uqol" markalı araq 0.75L | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin təyin etdiyi anbarı | ədəd | 1618 | 11326 | 1132,6 | 5 |
| 6 | "Medvejiy Uqol" markalı araq 1L | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin təyin etdiyi anbarı | ədəd | 2615 | 20920 | 2092 | 5 |
| 7 | "Kristalnaya" markalı araq 0,5L | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin təyin etdiyi anbarı | ədəd | 1909 | 10499,5 | 1049,95 | 5 |
| 8 | "Kristal" markalı araq 0,5L | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin təyin etdiyi anbarı | ədəd | 578 | 2890 | 289 | 5 |
| **Binəqədi rayonu** | | | | | | | |
| 1 | "Huawei" markalı mobil telefon | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin anbarı | ədəd | 1 | 70 | 7 | 2 |
| **Səbail rayonu** | | | | | | | |
| 1 | "BMW-730" markalı 10 DB 535 dövlət qeydiyyat nişanlı avtomobil | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin təyin etdiyi anbar | ədəd | 1 | 800 | 80 | 5 |
| **Xətai rayonu** | | | | | | | |
| 1 | "Peugeot 405 GLX" markalı avtomobil | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin təyin etdiyi anbar | ədəd | 1 | 500 | 50 | 5 |
| **Sumqayıt şəhəri** | | | | | | | |
| 1 | "Qazel" markalı avtomobil | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin təyin etdiyi anbar | ədəd | 1 | 1750 | 175 | 5 |
| **Saatlı rayonu** | | | | | | | |
| 1 | Torpaq sahəsi | Saatlı rayon Fətəlikənd və Azadkənd kəndləri | ha | 126,4572 | 50582 | 5058,2 | 2 |

Qeyd: Hərracda iştirak etmək istəyən fiziki və hüquqi şəxslər satışa çıxarılan əmlakla tanış olmaq və sifariş vermək üçün Əmlak Məsələləri Dövlət Komitəsi yanında Hərracların Təşkili üzrə Auksion Mərkəzinə müraciət edə bilərlər. Hərraclarda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş, satılan əmlakın ilkin satış qiymətinin 10 % həcmində beh ödəmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Sifarişlər Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Hərracların Təşkili üzrə Auksion Mərkəzində (Bakı şəhəri, Nərimanov rayonu, Z.Xəlil küçəsi, 11 ünvanında saat 9:00-dan 18:00-a qədər) və yaxud komitənin e-emdk.gov.az elektron xidmətlər portalı vasitəsilə hərracın keçirilməsinə ən geci 3 bank günü qalanadək qəbul olunacaqdır. Sifarişlər və aşağıdakı sənədlər (elektron xidmət vasitəsilə verilən sifariş istisna olmaqla) Hərracların Təşkili üzrə Auksion Mərkəzində hərracın keçirilməsinə ən azı 3 bank günü qalanadək qəbul olunacaqdır:

- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surətləri;
- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti;
- aşağıdakı hesaba 10% behin köçürülməsini təsdiq edən sənədin surəti;

Hesab nömrəsi:

Dövlət Xəzinədarlıq Agentliyi, Kod 210005, VÖEN 1401555071,

Müxbir hesab AZ85NABZ01360100000003003944, SWİFT BİK CTREAZ22.

Vəsaiti alan:Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Hərracların Təşkili üzrə Auksion Mərkəzi, Hesab № AZ77CTRE00000000000002647902 VÖEN 2000325371.

Büdcə təsnifatının kodu: 142191

Büdcə səviyyəsinin kodu: 7

Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Z.Xəlil 11 Tel: 193

## 15 may 2018-ci il tarixində saat 15.00-da ilkin hərraca çıxarılacaq dövlət nəfinə müsadirə edilmiş əmlakların siyahısı

| Sıra sayı | Əmlakın adı | Əmlakın yerləşdiyi ünvan | Ölçü vahidi | Miqdarı | Əmlakın start (satış) qiyməti manatla | 10% beh |
|---|---|---|---|---|---|---|
| Xətai rayonu | | | | | | |
| 1 | "Samsung" markalı mobil telefon | Hərracların Təşkili üzrə Auksion Mərkəzinin anbarı | ədəd | 1 | 30 | 3 |

Qeyd: Hərracda iştirak etmək istəyən fiziki və hüquqi şəxslər satışa çıxarılan əmlakla tanış olmaq və sifariş vermək üçün Əmlak Məsələləri Dövlət Komitəsi yanında Hərracların Təşkili üzrə Auksion Mərkəzinə müraciət edə bilərlər. Hərraclarda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş, satılan əmlakın ilkin satış qiymətinin 10 % həcmində beh ödəmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Sifarişlər Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Hərracların Təşkili üzrə Auksion Mərkəzində (Bakı şəhəri, Nərimanov rayonu, Z.Xəlil küçəsi, 11 ünvanında saat 9:00-dan 18:00-a qədər) və yaxud komitənin e-emdk.gov.az elektron xidmətlər portalı vasitəsilə hərracın keçirilməsinə ən geci 3 bank günü qalanadək qəbul olunacaqdır. Sifarişlər və aşağıdakı sənədlər (elektron xidmət vasitəsilə verilən sifariş istisna olmaqla) Hərracların Təşkili üzrə Auksion Mərkəzində hərracın keçirilməsinə ən azı 3 bank günü qalanadək qəbul olunacaqdır:

- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surətləri;
- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti;
- aşağıdakı hesaba 10% behin köçürülməsini təsdiq edən sənədin surəti;

Hesab nömrəsi:
Dövlət Xəzinədarlıq Agentliyi, Kod 210005, VÖEN 1401555071,
Müxbir hesab AZ85NABZ01360100000003003944, SWİFT BİK CTREAZ22.
Vəsaiti alan:Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Hərracların Təşkili üzrə Auksion Mərkəzi,
Hesab № AZ77CTRE00000000000002647902 VÖEN 2000325371.
Büdcə təsnifatının kodu: 142191
Büdcə səviyyəsinin kodu: 7
Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Z.Xəlil 11
Tel: 193

## Torpaq müsabiqələrinin və hərraclarının keçirilməsi haqqında məlumat
## Torpaq müsabiqə və hərracları may ayının 17-də keçiriləcəkdir.
### *(Ərizələr 16 aprel 2018-ci il tarixdən 17 may 2018-ci il tarixədək qəbul edilir)*

| Sıra № si | Torpağı müsabiqə və ya hərraclara çıxaran hüquqi şəxs (yerli icra hakimiyyəti, bələdiyyə) | Müsabiqə və ya hərrac | Müsabiqə və ya hərracın keçirildiyi yer və əlaqə telefonu | Müsabiqə və ya hərraca çıxarılan torpaq sahəsi və satıcı ilə bağlanacaq müqavilənin layihəsi ilə tanış olma tarixi, vaxtı və ünvanı | Sahəsi (kv.m və ya ha.), satılır və ya icarəyə verilir | Satışda-normativ qiymət, icarədə icarə haqqının aşağı həddi (manatla) | Hərracda ilkin qiymət, hərrac addımı və ya müsabiqədə qiymət, icarədə icarə haqqı (manatla) | Hansı məqsəd üçün satılır və ya icarəyə verilir | Uqodiya (təsərrüfat yeri) növü, keyfiyyət qrupu, şəhərlərdə və rayon mərkəzlərində zona | Torpaq üzərində hüququ təsdiq edən sənədin nömrəsi |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Sumqayıt şəhəri Sumqayıt Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı Sumqayıt ərazi şöbəsi Sumqayıt şəh., 18-ci məhəllə, bina 4/12 Tel: (018) 654 47 97 | 17may 2018, 15:00-dən 18:00-dək Sumqayıt şəhəri | 700 kv.m Satılır | 630,00 | 1589,00 | Fərdi yaşayış evi | VI zona | 309012002761 |
| 2 | Sumqayıt şəhəri Sumqayıt Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı Sumqayıt ərazi şöbəsi Sumqayıt şəh., 18-ci məhəllə, bina 4/12 Tel: (018) 654 47 97 | 17may 2018, 15:00-dən 18:00-dək Sumqayıt şəhəri | 204 kv.m Satılır | 183,60 | 463,00 | Fərdi yaşayış evi | VI zona | 309012002762 |
| 3 | Sumqayıt şəhəri Sumqayıt Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı Sumqayıt ərazi şöbəsi Sumqayıt şəh., 18-ci məhəllə, bina 4/12 Tel: (018) 654 47 97 | 17may 2018, 15:00-dən 18:00-dək Sumqayıt şəhəri | 400 kv.m İcarə | 64,00 | 320,00 | Sahibkarlıq | VI zona | 309012002224 |
| 4 | Sumqayıt şəhəri Sumqayıt Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı Sumqayıt ərazi şöbəsi Sumqayıt şəh., 18-ci məhəllə, bina 4/12 Tel: (018) 654 47 97 | 17may 2018, 15:00-dən 18:00-dək Sumqayıt şəhəri | 14 kv.m İcarə | 3,00 | 42,00 | Sahibkarlıq | II zona | 309012002507 |
| 5 | Abşeron rayonu Ceyranbatan Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı Sumqayıt ərazi şöbəsi Sumqayıt şəh., 18-ci məhəllə, bina 4/12 Tel: (018) 654 47 97 | 17may 2018, 15:00-dən 18:00-dək Sumqayıt şəhəri | 94 kv.m Satılır | 85,00 | 219,00 | Fərdi yaşayış evi | I qrup, əkin | 308012013973 |
| 6 | Abşeron rayonu Ceyranbatan Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı Sumqayıt ərazi şöbəsi Sumqayıt şəh., 18-ci məhəllə, bina 4/12 Tel: (018) 654 47 97 | 17may 2018, 15:00-dən 18:00-dək Sumqayıt şəhəri | 300 kv.m Satılır | 270,00 | 699,00 | Fərdi yaşayış evi | I qrup, əkin | 308012014041 |
| 7 | Abşeron rayonu Fatmayı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı Sumqayıt ərazi şöbəsi Sumqayıt şəh., 18-ci məhəllə, bina 4/12 Tel: (018) 654 47 97 | 17may 2018, 15:00-dən 18:00-dək Sumqayıt şəhəri | 800 kv.m Satılır | 720,00 | 2560,00 | Fərdi yaşayış evi | I qrup, əkin | 308012014282 |
| 8 | Abşeron rayonu Fatmayı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı Sumqayıt ərazi şöbəsi Sumqayıt şəh., 18-ci məhəllə, bina 4/12 Tel: (018) 654 47 97 | 17may 2018, 15:00-dən 18:00-dək Sumqayıt şəhəri | 800 kv.m Satılır | 720,00 | 2560,00 | Fərdi yaşayış evi | I qrup, əkin | 308012014279 |
| 9 | Abşeron rayonu Fatmayı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı Sumqayıt ərazi şöbəsi Sumqayıt şəh., 18-ci məhəllə, bina 4/12 Tel: (018) 654 47 97 | 17may 2018, 15:00-dən 18:00-dək Sumqayıt şəhəri | 800 kv.m Satılır | 720,00 | 2560,00 | Fərdi yaşayış evi | I qrup, əkin | 308012014280 |
| 10 | Abşeron rayonu Fatmayı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı Sumqayıt ərazi şöbəsi Sumqayıt şəh., 18-ci məhəllə, bina 4/12 Tel: (018) 654 47 97 | 17may 2018, 15:00-dən 18:00-dək Sumqayıt şəhəri | 800 kv.m Satılır | 720,00 | 2560,00 | Fərdi yaşayış evi | I qrup, əkin | 308012014281 |
| 11 | Abşeron rayonu Fatmayı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı Sumqayıt ərazi şöbəsi Sumqayıt şəh., 18-ci məhəllə, bina 4/12 Tel: (018) 654 47 97 | 17may 2018, 15:00-dən 18:00-dək Sumqayıt şəhəri | 600 kv.m Satılır | 540,00 | 1920,00 | Fərdi yaşayış evi | I qrup, əkin | 308012014247 |
| 12 | Abşeron rayonu Fatmayı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı Sumqayıt ərazi şöbəsi Sumqayıt şəh., 18-ci məhəllə, bina 4/12 Tel: (018) 654 47 97 | 17may 2018, 15:00-dən 18:00-dək Sumqayıt şəhəri | 600 kv.m Satılır | 540,00 | 1920,00 | Fərdi yaşayış evi | I qrup, əkin | 308012014246 |
| 13 | Abşeron rayonu Fatmayı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı Sumqayıt ərazi şöbəsi Sumqayıt şəh., 18-ci məhəllə, bina 4/12 Tel: (018) 654 47 97 | 17may 2018, 15:00-dən 18:00-dək Sumqayıt şəhəri | 600 kv.m Satılır | 540,00 | 1920,00 | Fərdi yaşayış evi | I qrup, əkin | 308012014245 |
| 14 | Abşeron rayonu Fatmayı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı Sumqayıt ərazi şöbəsi Sumqayıt şəh., 18-ci məhəllə, bina 4/12 Tel: (018) 654 47 97 | 17may 2018, 15:00-dən 18:00-dək Sumqayıt şəhəri | 600 kv.m Satılır | 540,00 | 1920,00 | Fərdi yaşayış evi | I qrup, əkin | 308012014243 |
| 15 | Abşeron rayonu Fatmayı Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı Sumqayıt ərazi şöbəsi Sumqayıt şəh., 18-ci məhəllə, bina 4/12 Tel: (018) 654 47 97 | 17may 2018, 15:00-dən 18:00-dək Sumqayıt şəhəri | 600 kv.m Satılır | 540,00 | 1920,00 | Fərdi yaşayış evi | I qrup, əkin | 308012014244 |
| 16 | Abşeron rayonu Masazır Bələdiyyəsi | Müsabiqə | ƏMDK-nin 5 saylı Sumqayıt ərazi şöbəsi Sumqayıt şəh., 18-ci məhəllə, bina 4/12 Tel: (018) 654 47 97 | 17may 2018, 15:00-dən 18:00-dək Sumqayıt şəhəri | 641 kv.m Satılır | 578,00 | 5416,00 | Fərdi yaşayış evi | I qrup, əkin | 308012014152 |
